*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 28 oktyabr 2017-ci il | № 81 (2198) | Qiymәti 25 qəpik


## Qətiyyətin son ünvanı - Qələbə!



Ön xətdə əsgərlərimizlə görüşəndə, onların gözündəki sevinci hiss edəndə, dili ilə demək istədiklərini - bizimlə birlikdə müşayiət etdiyiniz torpaqlar ulu babalarımız Cavanşirin, Babəkin, Xətainin at oynatdığı oylaqlardı. Bu torpaqları qorumaq bizim müqəddəs borcumuzdur - fikrini duyanda qəlbimizdən həzin bir titrəyiş keçir. Belə ruha, belə sevgiyə, belə məsləkə ortaq olursan. Kövrəlirsən, qürurlanırsan, fəxr edirsən.

(Ardı 5-ci səhifədə)



Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

4-cü səhifədə



Hər anımız Vətən deyir

5-ci səhifədə



Sən qalib gələcəksən!

7-ci səhifədə



Güclülər sınaqdan uğurla çıxırlar

8-ci səhifədə

*Ordu quruculuğu*

# Ordu quruculuğunda mühüm mərhələ

*Gələn il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 ili tamam olur. Keçən bir əsr ərzində müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biri olan Silahlı Qüvvələrin yaradılması prosesinə nəzər saldıqda görürük ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulan hərbi ənənələr müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hərbi qüdrətini daha da artırır.*

Ümummilli Liderimizin əsasını qoyduğu dövlət və ordu quruculuğu müasir səviyyədə inkişaf etdirilir, torpaqlarımızın layiqli şəkildə qorunması işinin təşkili istiqamətində qəti addımlar atılır və məqsədyönlü islahatlar həyata keçirilir.

Bu gün Silahlı Qüvvələrimizin üzərinə böyük məsuliyyət düşür. Azərbaycanın məcburi şəkildə cəlb edildiyi müharibə şəraitində düşmənlə mübarizənin təşkilində əsas işi əsasən Müdafiə Nazirliyi həyata keçirir. Buna görə də Ali Baş Komandan İlham Əliyev ordunun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsini, maddi-texniki bazanın inkişaf etdirilməsini, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsini, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsini əsas tapşırıq kimi ordu rəhbərliyi qarşısında qoyub.



Azərbaycan Ordusunun qarşıya qoyulan tapşırıqlara nail olunmasında Ali Baş Komandanın siyasi iradəsi xüsusi rol oynamaqla yanaşı, peşəkar kadrlara önəm verilməsi də mühüm əhəmiyyət kəsb edir. General-polkovnik Zakir Həsənovun Müdafiə naziri təyin edilməsi ilə, əslində, ordu quruculuğunda yeni bir mərhələnin əsası qoyuldu.



Müdafiə Nazirliyi sistemində aparılan islahatlar nəticəsində hərbi hissələrdə sağlam mühit formalaşdı. Hərbi hissələrin ərzaq-əşya təminatına nəzarətin gücləndirilməsi, silah-sursatla təchizat, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə əlaqədar tapşırıqlar verildi. Bir sözlə, Azərbaycan əsgərinə və zabitinə münasibət dəyişdi. Qürur mənbəyimiz olan ordu ümid yerimizə çevrildi. Döyüş hazırlığının yüksəldilməsi və torpaqlarımızın işğaldan azad olunması naminə islahatlar aparıldı. Xarici əlaqələrdə də Azərbaycanın hərbi təhlükəsizlik maraqlarını özündə ehtiva edən islahatlara önəm verildi. Müdafiə Nazirliyinin beynəlxalq əlaqələr sisteminə yeni baxış bucağı formalaşdı.

İstənilən səviyyələrdə qərargahlarda, idarəetmə məntəqələrində şəxsi heyətin biliyi, bacarığı, vərdişləri təkmilləşdirildi. Döyüş hazırlığının çöl şəraitində, o cümlədən müəyyən hissəsinin gecə vaxtı, özü də birbaşa döyüş şəraitinə uyğun keçirilməsinə üstünlük verilməklə irimiqyaslı təlimlər həyata keçirildi ki, bu da yeni yanaşmaya bir işarə idi.

Son dörd il ərzində müasir təlim mərkəzləri inşa edildi və şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi üçün maksimum şərait yaradıldı. Müdafiə Nazirliyinin döyüş hazırlığı planına uyğun olaraq keçirilən təlimlərə ehtiyatdan çağırılan hərbi vəzifəlilər də cəlb edildi. Bundan başqa ordunun şəxsi heyəti beynəlxalq səviyyədə keçirilən müxtəlif təlimlərdə iştirak etmək imkanı qazandı.

Həyata keçirilən bütün təlimlər bir daha onu sübut edir ki, bu gün Azərbaycan ordu quruculuğunun inkişafına xüsusi diqqət yetirir, ölkənin ərazi bütövlüyünün tezliklə təmin edilməsi prioritet hədəf olaraq təyin olunur.

Eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin infrastrukturunun, texniki təchizatının və müdafiə qabiliyyətinin NATO standartlarına uyğunlaşdırılması konkretləşir. Bir sözlə, təlimlər günümüzün tələbinə, Azərbaycan Silahlı Qüvvələrinin əhəmiyyət verdiyi əsas faktora çevrilir. Ona görə əminliklə deyə bilərik ki, Silahlı Qüvvələrin birlik, birləşmə, hərbi hissələrində bütün səviyyələrdə müasir döyüş üsullarının istifadəsi ilə genişmiqyaslı təlimlərin müntəzəm keçirilməsi düşmənə bir xəbərdarlıqdır, bizim üçün isə əsgəri həyat normasına çevrilmişdir.

Keçirilən son təlimlər, ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, yeni silahlardan və döyüş texnikalarından ustalıqla istifadə etmək bacarığını sübuta yetirdi.

Şübhəsiz ki, müasir tələblərə cavab verən, yüksək döyüş hazırlığına malik olan güclü ordunu formalaşdırmaq yüksək səviyyəli hərbi təhsil sistemindən keçir. Buna görə də Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi təhsilin müasir səviyyədə qurulmasına diqqət yetirilir. Xüsusi təyinatlı təhsil müəssisələrində ardıcıl təhsil proqramları həyata keçirilir. Bu məqsədlə inkişaf etmiş dövlətlərin hərbi təhsil müəssisələri ilə qarşılıqlı təcrübə mübadiləsi aparılır.

Hazırda ordumuzda düzgün layiqli kadrların seçilməsi, yerləşdirilməsi həyata keçirilir. Bundan başqa Müdafiə Nazirliyinin rəhbərliyi hərbi xidmətin nüfuzunun artırılması naminə yeni qanunvericilik layihələrinin hazırlanmasında fəal iştirak edir, eyni zamanda döyüş arsenalının müasir tələblər əsasında qurulmasını fəaliyyətinin əsas istiqamətlərindən biri hesab edir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov verdiyi müsahibələrdən birində bu məsələyə toxunur: "Silahlı



Qüvvələrimizin döyüş arsenalının müasir tələblər əsasında yenilənərək gücləndirilməsi ümumi fəaliyyətimizin başlıca istiqamətlərindən birini təşkil edir. Silahlı Qüvvələrimizin imkan və qabiliyyətlərinin artırılması, qoşunların hərtərəfli və fasiləsiz maddi-texniki təminatının keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni silahların, texnikanın, hərbi əmlakın alınması, silahlanmaya qəbul edilməsi istiqamətində işlər aparılır".

Bu gün göstərilən səylər nəticəsində hərbi hissələrdə şəxsi heyətin geyimlərinin modelində, əşya əmlaklarının keyfiyyətində, birdəfəlik sanitar-gigiyenik ləvazimatlar və digər təsərrüfat əmlakları ilə təmin edilməsində xüsusi irəliləyişlər əldə edilir. Hərbi hissələrdə milli yeməklərin hazırlanmasına üstünlük verilir. Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçuların, onların ailə üzvlərinin xidməti və məişət şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqət yetirir.

Ordumuz son bir neçə ildə bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət etməklə düşmən üzərində tam hərbi üstünlüyə yiyələndiyini sübuta yetirib. Bu gün hər bir soydaşımız Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçirir. Aprel döyüşləri də təsdiqlədi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və Azərbaycanla hesablaşmaq lazımdır. Hərbçilərimizin vətənpərvərlik ruhu, işğalçı ordunun təxribatlarına vaxtında və layiqli cavab verilməsi hər birimizin sabaha olan inamını daha da artırır. Müstəqil Azərbaycanın inkişafı, ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin sarsılmaz vəhdəti torpaqlarımızın geri qaytarılacağına tam əminlik yaradır.

Dünyada hərbi ekspertlərin apardığı sosioloji araşdırmalar zamanı məlum olub ki, özünə inamı formalaşdıran və yüksək döyüş ruhuna malik olan ordu güclü ordudur. Bu baxımdan son aprel döyüşlərinin aşıladığı inamı əsas götürərək deyə bilərik ki, Azərbaycan Silahlı Qüvvələri də güclü ordular sırasındadır.

**"Azərbaycan Ordusu", fotolar arxivimizdən**



# Müdafiə naziri Əfqanıstanın ölkəmizdəki səfiri ilə görüşüb

*Oktyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Əfqanıstan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Mohammad Taqi Xəlili ilə görüşüb.*

Müdafiə naziri Azərbaycanla Əfqanıstan arasında münasibətlərin inkişaf etməsində ölkə rəhbərlərinin rolunu xüsusi qeyd edərək hərbi sahədə də ikitərəfli əlaqələrin uğurla davam etdiyi bildirib.

Ölkələrimizin hər zaman müxtəlif beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəklədiklərini diqqətə çatdıran səfir M.Xəlili Əfqanıstanda həyata keçirilən sülhyaratma missiyasına Azərbaycan hərbçilərinin verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Azərbaycan və Əfqanıstan Müdafiə nazirlikləri arasında Əfqanıstanlı hərbi qulluqçuların Azərbaycan Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almaları haqqında sazişin qüvvəyə minməsinin əhəmiyyətini vurğulayan səfir öz ölkəsinin rəhbərliyi və xalqı adından təşəkkürünü çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, hərbi əməkdaşlığın, xüsusilə hərbi təhsil sahəsində əlaqələrin perspektivləri müzakirə edilib, regional təhlükəsizlik və müdafiə sahəsində tərəfləri maraqlandıran məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İran arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub

*Oktyabrın 24-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə Dəstək nazirinin müavini, ikitərəfli hərbi əlaqələr və hərbi-texniki əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun İran tərəfindən rəhbəri general-mayor Höccətullah Qoreyşinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Qonaqları salamlayan Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakıda iki ölkənin Müdafiə nazirlikləri arasında hərbi əlaqələr və hərbi-texniki əməkdaşlıq üzrə Birgə İşçi Qrupunu işə başlaması münasibətilə təbrik edib, bunun müdafiə və təhlükəsizlik sahəsində münasibətlərin daha da inkişaf etdirilməsində mühüm rol oynayacağını vurğulayıb. Bildirilib ki, hazırda Bakıda keçirilən işçi görüşünün təməli 2015-ci ildə İranın Müdafiə nazirinin Azərbaycana səfəri çərçivəsində baş tutmuş görüşlərdə iki ölkənin Silahlı Qüvvələri arasında birgə işçi qrupunun yaradılması məsələsinin müzakirəsi zamanı qoyulmuşdur.

Müdafiə naziri Dağlıq Qarabağ və ətraf rayonların uzun illərdir Ermənistanın işğalı altında olduğunu, bunun nəticəsində bir milyondan çox insanın didərgin düşdüyünü və qarşı tərəfin cəbhədə vəziyyəti gərginləşdirmək cəhdlərini qonağın diqqətinə çatdırıb.

Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq hissi ifadə edən general-mayor H.Qoreyşi bu münasibətlərin inkişafında hərbi mütəxəssislərin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd edib. Cənubi Qafqazda hərbi-siyasi vəziyyət, o cümlədən Dağlıq Qarabağ probleminə toxunan qonaq, münaqişənin sülh yolu ilə həllinin vacibliyini vurğulayaraq İranın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin iki ölkənin hərbi sahədə əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri, Xəzər dənizi hövzəsində təhlükəsizlik məsələləri və qarşılıqlı maraq doğuran digər problemlər ətrafında fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi Vaşinqtonda keçirilən görüşdə iştirak edib



Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Vaşinqton şəhərində Baş Qərargah rəisləri səviyyəsində "Zorakı Ekstremist Təşkilatlarla Mübarizə" mövzusunda keçirilən görüşdə iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Almaniya Müdafiə nazirlikləri arasında ikitərəfli danışıqlar keçirilib

Oktyabrın 26-da "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında 2017-ci il üçün ikitərəfli əməkdaşlıq Proqramı"na uyğun olaraq Bakı şəhərində hər iki ölkənin Müdafiə nazirlikləri arasında danışıqlar keçirilib.

Görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri, hərbi təlim və təhsil üzrə əməkdaşlıq fəaliyyətləri müzakirə olunub, eləcə də regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***27 oktyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 118 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Cəfərli və Bala Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 25-də Füzuli rayonu Horadiz kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Mixail Olaru və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi Aleksandr Nepokrıtıx keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndə Anjey Kasprşik, onun səhra köməkçiləri Oqnyen Yoviç, Martin Şuster və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi Patrik Farrelli aparıblar.

Tibb xidməti general-mayoru Natiq ƏLİYEV:

# Hərbi səhiyyəmizin inkişafında beynəlxalq əlaqələrin genişlənməsinə önəm verilir

## Azərbaycan və İran Silahlı Qüvvələri arasında hərbi tibb sahəsində əməkdaşlıq müzakirə olunub

*Oktyabrın 25-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında Azərbaycan və İran arasında hərbi tibb xidmətlərinin rəhbər heyətinin görüşü keçirildi.*



Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyev qonaqları Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayaraq ölkəmizdə hərbi tibb xidmətinin yaranmasından və inkişafından ətraflı söhbət açdı.

Ölkəmizin 25 ildən artıq müddətdə hərbi təcavüzə məruz qaldığını qonaqların diqqətinə çatdıran general Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini və cəbhə bölgəsində dinc sakinlərin bəzən bu təxribatların qurbanı olduğunu bildirdi. Cəbhə xəttinə yaxın ərazidə yerləşən Füzuli rayonunun Alxanlı kəndində 2 yaşlı Zəhranın və onun nənəsinin öz evlərinin həyətində düşmən tərəfindən açılan atəş nəticəsində həlak olduqlarını diqqətə çatdıran idarə rəisi işğalçı Ermənistanın beynəlxalq qurumların tələb və göstərişlərinə əməl etməyərək öz təcavüzkarlıq planlarını davam etdirdiyini təəssüf hissi ilə vurğuladı.

Hazırda Azərbaycanın dövlət rəhbərliyi səviyyəsində hərbi səhiyyənin hərtərəfli inkişafına diqqət göstərildiyini qeyd edən idarə rəisi ölkəmizin ordu quruculuğu prosesində bu vacib sahənin də müasir tələblər səviyyəsində inkişaf etdiyini, hərbi təbabətin kadr potensialının və maddi-texniki təminatının dünya standartlarına cavab verdiyini, hərbi tibbi təhsilin ötən illərlə müqayisədə yetərincə təkmilləşdiyini və bu istiqamətdə inkişaf etmiş ölkələrlə intensiv hərbi əməkdaşlığa önəm verildiyini iranlı həmkarlarının diqqətinə çatdırdı.

İran İslam Respublikası Silahlı Qüvvələri Tibb Baş İdarəsinin rəisi, briqada generalı doktor Həsən Ərağizadə öncə Azərbaycana səfəri zamanı burada səmimi qarşılandığı üçün öz minnətdarlığını bildirdi və azərbaycanlı həmkarları ilə fikir mübadiləsi aparmaqdan məmnun olduğunu qeyd etdi. Qonaq İranın da müxtəlif dövrlərdə uzunmüddətli münaqişələrə məruz qaldığını və bu gün də terror təhdidləri ilə üzləşdiyini vurğulayaraq hərbi təbabət sahəsində öz ölkəsində hərbi səhiyyənin inkişaf etdirilməsinin zəruriliyini vurğuladı və Azərbaycanla geniş hərbi əməkdaşlığa hazır olduqlarını bildirdi. İranlı generalın sözlərinə görə, bəzən silahlı münaqişələrdə qarşı tərəf müasir silahlardan, hətta kimyəvi mübarizə vasitələrindən istifadə edir ki, bu da döyüşçülər arasında ciddi yaralanmalara səbəb olur. "Ordunun şəxsi heyətinin belə şəraitdə sağlamlığının qorunması hərbi təbabətin öz fəaliyyətində ən qabaqcıl təcrübələrdən yararlanmasını gündəmə çıxarır. Bu isə hərbi tibb xidmətinin təşkilində digər ölkələrlə hərbi əməkdaşlığın artırılmasını vacib məsələ kimi ortaya çıxarır", - deyə Həsən Ərağizadə bildirdi.

Görüşdən sonra qonaqlar Silahlı Qüvvələrin Baş Klinik Hospitalının müxtəlif bölmələrində müayinə və müalicə işinin təşkili ilə yaxından maraqlandılar.

**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb





*NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 50 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.*

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

Nümunəvi xidmət

# "Həyatımda ən çox sevindiyim gün idi..."

Cəbhə bölgəsində, düşmənlə təmas xəttində zabit Murad Muradovla görüşüb söhbət edirik. Zabit deyir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu yaxınlarda hərbi hissəmizdə olarkən ön xətdə döyüşçülərlə görüşüb və onların qayğılarıyla maraqlanıb. "Ordu rəhbərliyinin tez-tez əsgərlərə baş çəkməsi şəxsi heyətin hərbi xidmətə məsuliyyət hissini daha da artırır. Ali Baş Komandanın və Müdafiə nazirinin etimadını doğrultmaq hər bir döyüşçünün başlıca məqsədidir. Döyüş mövqeyindən, bölmələrdən və burada təşkil olunmuş xidmətdən razılıqla ayrılan nazir nümunəvi döyüşçülərimizi də mükafatlandırıb", - deyə zabit bildirdi.

Ordu rəhbərliyindən mükafat alan hərbi qulluqçularla görüşmək mənim üçün də xoş bir təsadüf idi. Düşmənlə üzbəüz mövqelərdə xidmət etmək böyük cəsarət tələb edir. Bunu döyüşçülərimiz yaxşı bilir və sayıqlığı heç zaman əldən vermirlər. Biləsuvar rayonundan olan gizir Yaşar Quliyevlə söhbət edirik. O, artıq 7 ildir ki, müxtəlif hərbi hissələrdə xidmət edir.

- Yaşar, Müdafiə nazirindən hədiyyə almaq hər kəsə nəsib olmur...

- Nazirin bizim bölməyə gəlişini gözləmirdim. Ancaq gəldi və əl uzadıb hamımızla görüşdü.



Həmin an həm həyəcanlı, həm də sevincli idim. Xidmətimizlə maraqlandı. Sonra mənə də saat bağışladı. Bu mənim üçün gözlənilməz və həyatımda aldığım ən qiymətli hədiyyə oldu. Müdafiə naziri bizimlə səmimi söhbət etdi və dedi ki, ölkə başçısı möhtərəm Prezidentimiz İlham Əliyev siz döyüşçülərin əməyini daim yüksək qiymətləndirir. Düşmən işğalında olan torpaqlarımızı azad etməyə hazır olduğumuzu məndən də soruşdu. Mən də hər zaman Vətənimin müdafiəsinə hazır olduğumu, Ali Baş Komandanımızın döyüş əmrini digər silahdaşlarım kimi səbirsizliklə gözlədiyimi bildirdim.

Zabit M.Muradovun sözlərinə görə, nazirin saat hədiyyə etdiyi hərbçilər həmişə öz bacarıqları ilə seçilən döyüşçülərdir. O, gələcəkdə başqa döyüşçülərin də belə mükafatlara layiq görüləcəyinə əminliyini qeyd etdi.

Son vaxtlar ordu rəhbərliyi tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılan şəxsi heyət öz üzərlərinə düşən məsuliyyəti daha dərindən dərk edir və bu onların döyüş ruhunu daha da artırır. Döyüş ruhu yüksək olan ordunun isə döyüş meydanında qələbəsi mütləqdir.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Hər anımız Vətən deyir

*Yazıçı Aqil Abbasın ssenarisi əsasında çəkilən "Dolu" filmində bir epizod var: Əsgərlərimiz düşmənlə meşəlik ərazidə qeyri-bərabər döyüşə girirlər. Erməni səngərlərində gizlənən tank və digər zirehli texnikalar biz tərəfə atəş aça-aça tez-tez mövqelərini dəyişir. Həmin an filmin əsas qəhrəmanları "Drakon" və "Pələng" arasındakı dialoq diqqətdən yayınmır: "Bu BTR-lərdən 4-5-i bizdə olsaydı, Əsgəranı çoxdan şumlamışdıq".*





Bəli, ötən əsrin 90-cı illərində vətənpərvərliyimiz, milli ruhumuz, düşmənə nifrətimiz aşıb-daşsa da, vahid komandanlıqdan idarə edilən ordumuz, silah-sursat və texnikamız yox idi. Həmin vaxt Naxçıvanda yaşananlar heç də Dağlıq Qarabağ cəbhəsində yaşananlardan geri qalmırdı. İşğalçı Ermənistan sərhəd boyu hücuma keçərək bu bölgəni də işğal etmək üçün bütün qüvvələrini səfərbər etmişdi. Moskvadan Naxçıvana qayıdan ulu öndər Heydər Əliyev isə bütün naxçıvanlıları öz ətrafında birləşdirdi. Əhalinin Ümummilli Liderə böyük etimad və inamı hər şeyi kökündən dəyişdi. İnsanlar süngü-bıçaqla, ov tüfəngi ilə doğma torpağın müdafiəsinə qalxdılar.

70 il ürəyimizdə dalğalanan üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda başımızın üzərinə qalxdı. Dövlət müstəqilliyimizin də ilk addımları məhz burada atıldı və Naxçıvanda ilk milli hərbi hissə yaradıldı. Və o zaman bizə böyük ruh verən ilk hərbi parad da məhz Naxçıvanda keçirildi…

Düz 25 il sonra səhər tezdən, tarixi bir gündə - 18 Oktyabr Dövlət Müstəqilliyi Günündə yuxudan qalxıb böyük həyəcanla hazırlaşıram. Çünki, bir azdan vaxtilə Ulu Öndərin Naxçıvanda yaratdığı ilk milli hərbi hissənin 25-ci ildönümü münasibətilə möhtəşəm hərbi parad keçiriləcəkdi.

Budur, Naxçıvan şəhərinin Heydər Əliyev prospektindən Salvartı zirvəsinə uzanan yol sanki dağların əzəmətindən, vüqarından güc alaraq dalğalanır. Böyük izdihamın gözü sıra meydanında dayanan aslan ürəkli əsgər və zabitlərimizdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Müdafiə naziri general-polkovnik Zakir Həsənov zabit və əsgərlərimizi hərarətlə salamlayır, onları əlamətdar bayramlar münasibəti ilə təbrik edir. Çıxışlardan sonra keçirilən təlimlərdə döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artıran şəxsi heyət nizami addımlarla irəlilədikcə ayaq səsləri ürəklərimizin səsinə qoşulur. Sanki o an ətrafdakı hər kəsin ürəyindən əsgər olmaq, səngərdə dayanmaq keçir.

Heydər Əliyev adına Hərbi Liseyin kursantları, xüsusi təyinatlılar, kəşfiyyatçılar, sərhədçilər, motoatıcılar, rabitəçilər, qorxmaz şahinlərimiz bir-bir salamlayır...

Budur, Əlahiddə Ümumqoşun Ordunun arsenalında olan ən müasir silah və texnikalar sırada görünür. Onların səsi Ağrıdağdan Haçadağa, Haçadağdan Murova qədər yayılıb. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin iştirakı ilə keçirilən hərbi parad minlərlə adamın qəlbini riqqətə gətirirdi.

Ordumuzun mexanikləşdirilmiş, motoatıcı, xüsusi təyinatlı, kəşfiyyat, dağ atıcı, tank, reaktiv artilleriya, hava hücumundan müdafiə və rabitə bölmələrinin, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki-müdafiə alayının şəxsi heyəti nizami addımlarla yeri-göyü titrədirdi.

Nə yoxdu, tank əleyhinə idarə olunan "SPAYK" raket kompleksləri, Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan "Marauder" zirehli döyüş maşınları, pilotsuz uçuş aparatları, reaktiv artilleriya kompleksləri, minaatanlar, tank əleyhinə toplar, "Qrad"lar, "Sakarya", "Qasırğa", "Smerc" yaylım atəşli reaktiv sistemləri, döyüş maşınları, zenit raket kompleksləri, zirehli transportyorlar, özüyeriyən tank əleyhinə komplekslər, müasir tanklar və özüyeriyən artilleriya qurğuları...

"SU-25" döyüş təyyarələri, "Mİ-17-1V" və "Mİ-35M" helikopterləri ulu Naxçıvan səmasını fəth edərək Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrinin güc və qüdrətini bir daha nümayiş etdirdi.

Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sözlərini xatırlayıram: "Naxçıvan Ordusu bu gün güclü ordudur və Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir".

Bu gün üstündə gəzdiyimiz bu Vətəni öz qanları bahasına qoruyan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bu torpağı, bu Vətəni bir də ona görə sevirik ki, o bizə şəhidlərimizin əmanətidir. Biz onlarla yaşayırıq, biz onlarla yaşadırıq, biz onlarla yaşlanırıq... Böyük türk şairi Məhmət Akifin təbirincə desək:

*Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı:*
*Düşün altındakı minlərlə kəfənsiz yatanı!!!*

Müdriklər deyirlər ki, boş zaman yoxdu, boşa keçirilmiş zaman var. Muxtar Respublikada keçirilən parad bir daha sübut etdi ki, Naxçıvan ötən 25 ildə başdan-başa tikilib-qurulmaqla, yenilənməklə bərabər, həm də gücünə güc qatıb. Əlincə yenilməzliyi qazanıb, qüdrətli orduya sahib olub.

Az qalıb, çox az qalıb. Bu gün parada çıxan zirehli texnikaların səsi Naxçıvana çox yaxın olan Şuşada, Kəlbəcərdə, Xankəndində, Laçında da tezliklə eşidiləcək və bütün əzəli torpaqlarımız işğaldan təmizlənəcək.

**Sahil TAHİRLİ,**
**Naxçıvan**

# Azərbaycan-Pakistan parlamentlərarası əməkdaşlığının daha da inkişafı məsələləri müzakirə olunub

*Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq ilə görüşüb.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini bildirən səfir iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin yaranmasında parlamentlərin də önəmli rolunun olduğunu qeyd edib.

Əli Əlizadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Pakistan Milli Assambleyası (PMA) tərəfindən Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsinin yüksək qiymətləndirildiyini vurğulayıb.

Qarşılıqlı olaraq həyata keçirilən və keçiriləcək yeni layihələr, əməkdaşlıq imkanları haqqında məlumat verən səfir parlamentlərarası əlaqələrin daha da inkişafı istiqamətində hər iki ölkənin qanunverici orqanlarının rəhbərlərinin və dostluq qruplarının səylərinin zəruri olduğunu, PMA ilə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb.

Sərdar Ayaz Sadiq Azərbaycanın Pakistan üçün qardaş ölkə olduğunu deyib, Azərbaycan ilə əlaqələrin inkişafında Pakistanın da maraqlı olduğunu bildirib. Pakistanın Ermənistanı bir ölkə olaraq tanımadığını qeyd edən Sərdar Ayaz Sadiq Ermənistanın əks səylərinə baxmayaraq, Pakistanın Azərbaycanı dəstəkləməyə davam edəcəyini vurğulayıb.

# Qətiyyətin son ünvanı - Qələbə!




**(Əvvəli 1-ci səhifədə)**

Əsgər Nemət Qeybullayev söhbət zamanı bildirdi ki, ana laylasına bənzəyən Vətən sevgisi həzinliyiylə, doğmalığıyla canımıza-qanımıza hopub. Bu, ana nəsihətidir, dərin mənası ilə beynimizə, idrakımıza həkk olunub. Dünyaya göz açan hər bir uşağın ilk dərsi - sənin borcun Vətəni, doğma torpağı qorumaq, ona xidmət etməkdir! - olmalıdır: "Bu dərsi alan bir vətəndaş kimi mən də borcumu anlayır, müstəqil Azərbaycanın milli mənsubluğundan doğan qüruru sözümdə və əməlimdə yaşatmağa çalışıram. Bu gün hamımızı narahat edən məsələ ölkənin ərazi bütövlüyünün təmin olunması və məcburi köçkünlərin öz doğma yerlərinə qaytarılmasıdır. Bu məsələdə biz əsgərlərin üzərinə böyük vəzifələr düşür. Bu vəzifənin öhdəsindən gələcəyik - əsl vətəndaş olmağı bacarırıq, Vətənin müdafiəsində dayanmışıq. Sevinirəm ki, mən də belə oğulların sırasındayam".

- Hərbi xidmətə gəldiyim ilk gündən radiotelefonçu vəzifəsinin sirlərini dərindən mənimsədim, - deyə əsgər sözünə davam edir. - Ön xətdə olduğumuza görə bir əsgər kimi döyüş növbətçiliyində fərqlənmək üçün müşahidəçilik qabiliyyətini, ərazinin relyefini, oriyentirləri müəyyən etməyi, həmin oriyentirlərə əsasən məsafəni təyin etməyi, silah və texnikadan istifadə qaydalarını da mənimsədim. Məsələn, dayandığımız nöqtədən gördüyünüz cihazlar vasitəsilə düşmənə qədər olan məsafəni müəyyən edir, bu məsafədə nə baş verirsə, nəzarətdə saxlayıb müşahidə jurnalına qeyd edirik. Öyrəndiklərimin bir məqsədi, bir məramı var - əldə etdiyim bilgilərin sayəsində torpaqlarımızı qorumaq.

Nemət Qeybullayev qətiyyətli əsgərdir. Sülh danışıqları baş tutmasa, torpaqlarımızı Ali Baş Komandanın əmriylə belə qətiyyətli əsgərlər azad edəcək. Qətiyyət qələbə deməkdir...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında.**

**2.Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında.**

**3. Dövlət institutları arasında Silahlı Qüvvələrin rolu və yeri.**

***Mövzu:*** *Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Silahlı Qüvvələrin rolu və yeri.*

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında*

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin Əsas Qanunu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiya layihəsi hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində - referendum yolu ilə qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında dövlət hakimiyyəti haqqında aşağıdakı məqamlar açıqlanır:

- Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir;

- sərbəst və müstəqil qaydada öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir;

- xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur;

- Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidiyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında*

**Azərbaycan dövlətinin siyasi əsasları aşağıdakılardır:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**Azərbaycan dövlətinin iqtisadi əsasları aşağıdakılardır:**

- Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur;

- iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir;

- Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Milli Bank dövlətin müstəsna mülkiyyətidir;

- Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır.

### *Dövlət institutları arasında Silahlı Qüvvələrin rolu və yeri.*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zəruri oldu. Bu həm də ölkəmizin erməni təcavüzünə qarşı mütəşəkkil şəkildə mübarizə aparması üçün lazım idi. Bir sözlə, Silahlı Qüvvələrin formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının Əsas Qanunu olan Azərbaycan Respublikasının Konstitusiyasında da Silahlı Qüvvələrlə və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır. Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün bir qanunun yox, qanunlar toplusunun qəbul edilməsi vacibdir. Odur ki, Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəl qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr edildi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq, Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir. Belə ki, qanunla müəyyən edilmiş həddlərdə və növlərdə hərbi xidmətə yarayan kişi cinsindən olan hər bir vətəndaş ordu sıralarında həqiqi hərbi xidmət keçməlidir.

Bu gün Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunmuş, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Quru Qoşunları, Hərbi Dəniz, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birləşmə və bölmələrində şəxsi heyətin intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar şəxsi heyətin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində geniş işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müasir standartlara cavab verən tədris bazası mövcuddur. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən yaradılmış Silahlı Qüvvələrin Hərbi Akademiyası bu gün də öz fəaliyyətini uğurla davam etdirir.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, dərslər keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır ki, bunu da aprel döyüşləri bir daha sübut etdi.

Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Silahlı Qüvvələrimizin möhkəmlənməsinə və peşəkarlığına xidmət edir.

1991-1993-cü illərdə Azərbaycan torpaqlarının 20 faizi düşmən tərəfindən işğal edilib. Azərbaycan dövləti ümummilli liderimiz Heydər Əliyev cənablarının rəhbərliyi altında respublikamızın ərazi bütövlüyünün bərpası üçün bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də çox böyük işlər görmüşdür. Ulu öndərin siyasətinin layiqli davamçısı olan, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının ildönümü münasibəti ilə keçirilmiş irimiqyaslı əməliyyat-taktiki təlimdə iştirak edərkən demişdir: "Azərbaycan Ordusu gündən-günə güclənir. Azərbaycanda ordu quruculuğu prosesi çox uğurla gedir və bu bizə imkan verir ki, hərbi gücümüzü artıraq. Ordu quruculuğu hər bir ölkə üçün çox önəmli məsələdir. Xüsusilə müharibə şəraitində yaşayan ölkə üçün bu, prioritet olmalıdır. Bu, belədir və Azərbaycanda ordu quruculuğu ən prioritet məsələdir. Biz uzun illərdir ki, işğaldan əziyyət çəkirik, torpaqlarımız işğal altındadır. Hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Bunu etmək üçün siyasi və diplomatik səylərlə bərabər, biz güclü orduya malik olmalıyıq və bu proses uğurla gedir. Bu gün Azərbaycan Ordusunun səviyyəsi çox yüksək zirvədədir".

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

*Asudə vaxt*

# Sən qalib gələcəksən!

*Əsgər və zabitlərin asudə vaxtının təşkilinin müxtəlif formaları var. Nə təşkil olunmasını hərbi hissənin komandanlığı müəyyənləşdirirsə, necə təşkil olunması icraçının səlahiyyətidir. Bütün tədbirlərin mahiyyəti Vətənə sevgidi, vətənpərvərlikdi, torpaqsevərlikdi. Hər tədbir əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm bir vasitədi...*



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi vaxtaşırı bu və ya digər hərbi hissələrdə əsgərlər qarşısında maraqlı, düşündürücü proqramlarla çıxış edir. Hər konsert böyük bir amalın təzahürüdü: vətənpərvərlik, əsgərlərin mənəvi hazırlığının daha geniş formatda formalaşmasında yardımçı olmaq....

Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən bütün tədbirlərdə iştirak edən ansambl bu günlərdə ön xətdə yerləşən "N" hərbi hissəsində orijinal proqramla çıxış etdi. Konsert hərbi



hissənin şəxsi heyəti ilə ansamblın üzvlərinin səmimi ünsiyyəti kimi izlənildi.

Əməkdar Mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev çıxış edərək Vətəni qorumağın müqəddəsliyindən söz açdı, fikirlərini "Kitabı-Dədə Qorqud" dastanlarına, eləcə də klassik və müasir şairlərimizin şeirlərinə istinadən bildirdi, qəhrəmanlığın, şəhidliyin fəlsəfəsindən danışdı:

- Sizin borcunuz Vətəni qorumaq, bizim borcumuz sizin duyğularınızın xidmətində olmaqdır. Siz aprel zəfərini qazananların sələflərisiniz. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll edilməzsə, Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan döyüşlə azad edəcəksiniz. Hər biriniz tarix yazacaq əsgərlərin sırasında olacaqsınız. Böyük Qələbənin səhərisi daha möhtəşəm konserti Cıdır düzündə izləyəcəksiniz. O günə az qalıb...

Elçin Məmmədovun ifasında "Gəz, oğlum" mahnısı dünənin (babanın) bu günə (oğullara, əsgərlərə), sabahlara (nəvələrə) nəsihəti kimi dinlənildi.

Payızın sazağını kimsə hiss etmirdi. Mahnı kəlmə-kəlmə əsgərlərin ruhuna hopurdu; əsgərlərin əli əsgər əlində isinirdi. Zamanında valideynlərindən, müəllimlərindən, sonra komandirlərindən eşitdiklərinin eynini eşidirdi əsgərlər - Vətəni sev, Vətəni qoru. Mənə elə gəlirdi ki, əsgərlər mahnını Ozan (Dədə Qorqud) öyüdü kimi dinləyirlər...

Arif Şükürovun nağarada ifa etdiyi "Azərbaycan təranələri"nin ecazkarlığının ürək-ürək gəzişdiyi hiss olunurdu; Qobustandayıq sanki, sanki qavaldaşın ahəngiylə əhatələnmişdik. Mİn illərin o üzündə qalan tariximizin səsiydi ritmlər, Gülüstanda bağlanan müqaviləyə etirazıydı - xalqın qəzəbiydi, şairlərimizin şeirlərindən düşən işığıydı, xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının misralarıydı, Arazın çılğınlığıydı, 1918-ci il mayın 28-də dünyanın eşitdiyi azadlıq, müstəqillik harayıydı, 1991-ci ilin noyabrında əsarət zəncirinin qırılmasından qopan səsiydi, aprel döyüşlərinin səs biçimli təsviriydi. Arif Şükürov hamımızı bu ovqatla ovsunladı...

Ağabala Abdullayevin ifa etdiyi "Vətən oğlu" mahnısı kövrəkliklə dinlənildi. Yurdundan, ev-eşiyindən perik düşənlərin ağrı-acılarının musiqi yozumuydu bu mahnı. Qaçqınlıq sıxıntılarını yaşayanların harayı kimi səslənən mahnıda Zakir Fəxrinin bir şeirinin ovqatı da hiss olunurdu: Qalmaz belə, qalmaz dünya. Ağabala Abdullayevin - babası Ağabala Abdullayevin, atası Nizami Abdullayevin musiqi dünyasını böyük sədaqətlə yaşadan istedadlı müğənninin səsində bir inam da duyulurdu: Qarabağın bu gününə vurulmuş qara bağları Azərbaycan əsgərinin kəsərli qılıncı paralayacaq!..

Nurşən Məmmədovun könüləyatımlı səsi "Torpağın səsi" ilə o qədər mehrlə, o qədər doğmalıqla çulğaşmışdı ki! Dinlədikcə, işğal altından qalmış torpaqlarımızın harayını eşidirdin, sönmüş ocaqlarımızın, dağıdılmış evlərimizin, yaralanmış dağ-daşımızın, duruluğunu itirmiş bulaqlarımızın, yuvasından perikmiş durnalarımızın qəhərini yaşayırdın. O səs



deyirdi ki, işğalın gözünün töküləcəyi günə az qalıb. Torpağın səsi"ni eşidən əsgərlər torpağın səsinə-harayına yetişəcək! Mahnı qədərsiz həvəslə dinləyən əsgərlərin qələbə ruhunu kükrədirdi...

Gənc xanəndə Yaqut Rəsulzadənin ifasında "Mən yoruldum, həyat" mahnısından sezilən giley, əslində, bəşərin yaşam istəyidi. Belə məlahətli səs, belə gözəl ifa, təbii ki, əsgərlərin yaddaşında illərlə yaşayacaq. Həm də onları Böyük Qələbəyə səslədiyinə görə yaşayacaq; Yaqutun ifası duyanlara (hamıya!) sanki "Həyatı sev, onun axarının xalqının, millətinin, dövlətinin mənafeyinə yönəldilməsinin cəfakeşi ol. Əsgərin bugünkü vəzifəsi torpaqlarımızın işğaldan azad edilməsidi. Xalqımız sizdən qələbə gözləyir, əsgər qardaşım! - deyirdi bu səs, bu möhtəşəm ifa...

Nigar Rəhimovanın ifasında "Qarabağ" Qarabağın səsi kimi dinlənildi. Bu ifa Qarabağın istəyinin tərcümanıydı sanki. Qarabağ "Qollarıma qondarılmış kəndiri açın!" - deyirdi elə bil. Bu ifa "Səni sıxıntılardan xilas edəcəyik, Qarabağımız!" - deyirdi. Qarabağ "Gözüm yollarınızda qalıb..." - deyirdi. Bu ifa "İşğalın son nəfəsidi, Qarabağımız!" - deyirdi...

Vüsal Ağayevin ifasında "Dədə Qorqud" bədii filminə yazılmış mahnının çalarları (qəhrəmanlıq, sevgi) əsgərləri duyğulandırdı. Azərbaycan əsgərinin ruhunun mahnısıdı bu mahnı - qəhrəmanlığıyla, duyğusallığıyla sevilənlərə sevginin, ehtiramın təsdiqi kimi dinlənilən mahnı təsdiqləyirdi ki, Azərbaycan əsgəri Vətəni qoruyur, Vətənə layiqli vətəndaş kimi öz sevgisini də qoruyur. Müqəddəsliyi qoruyanların Vətənidi Azərbaycan!



Leyla Qəhrəmanova ilə Elçin Məmmədovun dueti ("Cənab leytenant") mahiyyəti etibarilə Azərbaycan Ordusunun zabitinə sayğının təsdiqi kimi ifa edildi, dinlənildi. Cənab leytenantlara xitabən deyilənlər ("Xoş soraqlı bir sabahdan pay ver mənə, cənab leytenant") xalqın Azərbaycan Ordusundan umacağıdı. Leytenantlar (ümumən zabitlər) bu umacağı tabeçiliyində olanların şücaətiylə, cəsarətiylə, Vətən sevgisiylə yerinə yetirəcəklər. 1994-cü ilin yanvarında Horadiz əməliyyatında olduğu kimi, 2016-cı ilin aprelində olduğu kimi...

Günay Qasımovanın ifasında "Odlar yurdu" mahnısı Odlar yurdunun od ürəkli oğullarının odası kimi dinlənildi. "Var olmuşuq, varıq, var olacağıq!" - deyirdi bu gözəl ifa. Hər qalası Koroğlu olan bu diyarın hər oğulu Cavanşir, Koroğlu, Xətai, Yusif, Vəzir,..., Mübariz..., Çingiz hünərlidi deyir. İfa onu da deyir ki, bu əsgərlər yaxın vaxtlarda Odlar diyarını Böyük Qələbə ovqatıyla yaşadacaq. Sülh danışıqları baş turmasa, Ali Baş Komandanın əmriylə döyüşəcəklər, torpaqlarımızı işğaldan azad edəcəklər. Bu meydanda



dalğalandırdıqları bayraqlar Cıdır düzünün göylərini də süsləyəcək! O günə az qalıb. Lap az...



Dədə Qorqud əyyamında ozanlar mətləbini qopuzla, sonralar aşıqlar sazla bildirib. Ruhumuzun səsidi saz, ruhumuzun istəyinin cəfakeşidi. Xallarında-güllərində xalqın istəyini, muradını, niyyətini yaşadır. "Misri"siylə qılınca dönür, "Ruhani"siylə ruhumuzun üstünə meyillənən yellərin yolunu kəsir, "Paşaköçdü"süylə köçənləri yolundan saxlayır, "Sarıtel"i günümüzə-ayımıza sarılır... Əsgərlər Rafiq Qasımovun sazda ifasını bu ovqatla dinlədi.

Aytən Rəsulovanın, Əfsanə Hüseynovanın, Vüsalə Babayevanın ifasında dünyanın heyrət ünvanı olan "Sarı gəlin" özü biçimdə heyrətə döndü. Gözəl bəstənin bu gözəllikdə ifasını gözlərinə, gözlərindən ürəyinə köçürən əsgərlərin hamısını eyni qürur birləşdirmişdi: Bu, mənim xalqımın bəstəsidi! Bu, mənim xalqımın rəqsidi! Rəqsin plastikası könülləri elə coşdurdu ki!

...Günün necə batdığı axşamın necə düşdüyü hiss olunmadı; hərbi hissənin əsgərləri və zabitləri bu günün ovqatını uzun müddət yaddaşlarında yaşadacaqlar.

Polkovnik Əziz Quliyev ansamblın çıxışına görə Mərkəzi Zabitlər Evinin rəisinə, ansamblın rəisinə minnətdarlığını bildirdi və ansamblın solistlərindən bir qrupunu təltif etdi...

...Konsert başa çatdı. Əsgərlərin baxışlarında vaxta etiraz hiss olunurdu: saatlar çox tez ötüşdü...

Horadizdə "Horadizə şəhər statusu verilməsinin 10 illiyi" tədbirinin mahiyyətini solistlər bu hərbi hissəyə gətirə bilmişdi; ruhumuzun işığında izlədiyimiz o tədbir ulu öndər Heydər Əliyevin siyasətinə, sərkərdəlik dühasına, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasətinə, azərbaycançılıq ideologiyasına ehtiram işığıydı. Hamı - Horadizdə əsasına mətərislənən ağsaqqal da, atasının çiyinlərində bayraq dalğalandıran 2-3 yaşlı uşaq da, iki nəvəsinin əhatəsində gördüklərini könlünə köçürən nənə də, Horadiz əməliyyatının iştirakçıları da, 8 yaşlı Həmid də, yaşıdları da, əsgərlər də bu işığı Şuşada da görməyin həsrətindəydi...

Hərbi hissənin yaradılması gününə təsadüf edən bu konsert "Horadizə şəhər stastusu verilməsinin 10 illiyi" tədbirinin davamıydı sanki...

O tədbirin də, tədbirin davamı kimi "N" hərbi hissəsində izlənilən konsertin də mahiyyəti əsgərlərə "Sən qalib gələcəksən!" - deyirdi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**leytenant**
**Anar ABDURƏHMANOVUNDUR**

# Güclülər sınaqdan uğurla çıxırlar

## Silahlı Qüvvələrin cüdo birinciliyi keçirilib



Cüdo idman növü 1882-ci ildə Yaponiyada təşəkkül tapıb. Bu döyüş idmanının təməli Yaponiyada Olimpiya Komitəsinin ilk prezidenti Ciqaro Kano tərəfindən yaradılıb.

Cüdo - yapon sözüdür və Cü - yumşaq, elastik, Do - isə yol, prinsip anlamını verir. Ciqaro Kano Ciu-Cutsu döyüş növünün əsasında cüdonun əsas qaydalarını, məşq prinsiplərini, mübarizə üsullarını işləyib hazırlamışdır.

1972-ci il ildə keçmiş Sovetlər birliyində də bu idman növünün geniş yayılması haqqında qərar verilib və elə həmin il Azərbaycanda Cüdo Federasiyası yaradılıb. Respublikamızda ilk dəfə olaraq 22 noyabr 1972-ci ildə cüdo üzrə yarışlar keçirilib və bununla da ölkəmizdə ənənəvi cüdo yarışlarının bünövrəsi qoyulub.

Ordunun döyüş hazırlığının artırılmasında idmana önəm verən Müdafiə Nazirliyinin rəhbərliyi müxtəlif idman birinciliklərinin müntəzəm keçirilməsinə diqqət yetirir.

Bu günlərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində cüdo üzrə Silahlı Qüvvələr birinciliyi keçirildi.

Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin sədri, beynəlxalq dərəcəli hakim Fariz Hüseynovun rəhbərliyi ilə hakimlər heyəti birinciliyi idarə edirdi. Hərbi hissə və bölmələri təmsil edən 100-dək idmançı 13 komanda halında 7 çəki dərəcəsində mübarizə apardı.

Yarışın açılış mərasimi ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik Sadiq Paşayev çıxış edərək bildirdi ki, orduda şəxsi heyətin fiziki hazırlığı daim diqqət mərkəzindədir. "Hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. Ordu idmançıları cüdoya da böyük maraq göstərirlər. Hər il davamlı yarışlar keçirilir. İdmançılarımız ölkə xaricində keçirilən yarışlarda da iştirak edirlər. Bu günlərdə Xorvatiyada keçirilən gənclər arasında dünya çempionatında idmançılarımız iştirak ediblər. Natiq Qurbanlı 60 kq çəki dərəcəsində qaliblər sırasına çıxıb. Əldə edilən uğurlar, sözsüz ki, bizi sevindirir. İdmançılarımızın hər birinə indiki sınaqda da uğurlar arzulayıram."

Beynəlxalq dərəcəli hakim Fariz Hüseynov cüdo idman növü və yarışın şərtləri haqqında geniş məlumat verərək bildirdi ki, ordunun gücü onun şəxsi heyətinin fiziki hazırlığından da asılıdır.

Hakimlər hər hansı bir idman növündə olduğu kimi, bu dəfə də idmançıların qaydalara əməl etmələrinə nəzarət edirdilər. Nazim Umbayevin, Telman Əhmədlinin, Nəsimi Əhmədovun, Faiq Həmzəyevin və Əli Səfərovun hakimliyi ilə birincilik uğrunda gedən



mübarizənin ədalətli idarə edilməsi idmançıları razı salırdı.

Yarış zamanı döyüşün müddəti 5 dəqiqə idi. Döyüş "hacime" komandası ilə başlayır. "Mate" komandası döyüşü müvəqqəti, "soro-made" isə döyüşü tam olaraq dayandırır.

Silahlı Qüvvələrin cüdo birinciliyində "Şəmkir" komandası birinci, "Beyləqan" ikinci və "Bakı" üçüncü yerə layiq görüldü. Kiçik qruplar arasında Təlim və Tədris Mərkəzi birinci yerə çıxdı. Cüdoçulardan Natiq Qurbanlı (60 kq), Tural Muradov (66 kq), Çingiz Əhmədov (73 kq), Vasif Talıbov (81 kq), Ruslan Əliyev (90 kq), İslam Abbasov (100 kq) və Tamerlan Əlisultanov (+100 kq) Silahlı Qüvvələr birinciliklləri tarixinə adlarını yazdılar.

Tədbirdə Cüdo Federasiyasının bir qrup hakimi Müdafiə Nazirliyinin rəhbərliyi adından mükafatlandırıldı.

Sonda qalib idmançı və komandalara medal, fəxri fərman və diplomlar verildi. Birinci yeri tutmuş komandaya isə keçici kubok təqdim edildi.



**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Vətənin müdafiəsinə həmişə hazırıq!

*Gənclərin Vətənə, xalqa, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda formalaşmaları üçün məqsədyönlü fəaliyyət Şəmkir rayonunda da uğurla həyata keçirilir.*

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Şəmkir rayon şöbəsinin rəisi mayor Anar Hüseynov söhbətimizdə bildirir ki, ölkəmizdə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində qazanılan uğurlar ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. "Dahi rəhbər daim gəncliyə böyük qayğı göstərib. Azərbaycan gəncliyinə diqqət və qayğı bu gün də Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla davam etdirilir. Rayonumuzda gənclərin ordu həyatına hazırlanmaları məqsədilə vacib işlər görülür, tez-tez mədəni-kütləvi tədbirlər keçirilir. Müdafiə Nazirliyinin bölgələrdə keçirdiyi vətənpərvərlik tədbirləri də ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Hərbi hissələrdə təşkil olunan "Açıq qapı" günləri ordu ilə xalqın əlaqələrinin möhkəmləndirilməsinə xidmət edir. Gənclər, məktəblilər "Açıq qapı" günlərində həvəslə iştirak edirlər".

Zabitin sözlərinə görə, rayonun bütün məktəblərində Vətən uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olanların xatirə güşələri yaradılıb. "İgid Vətən oğullarının vətənpərvərlik nümunələri haqqında məktəblilərə müntəzəm məlumatlar verilir. Ötən ilin aprel döyüşlərində xalqımızın qəhrəman övladlarının hünəri sayəsində Ermənistanın öz ordusunun məğlubedilməzliyi haqqında yaratdığı mif alt-üst oldu. Bütün dünya gördü ki, Azərbaycan Ordusu düşmən ordusundan qat-qat güclüdür və işğalda olan torpaqlarımızı azad etməyə qadirdir".

Ordu həyatından təzəcə ayrılan, Vətənə xidmətdən həmişə qürur duyacaqlarını bildirən gənclərlə söhbətləşirəm. Ehtiyata buraxılan gənclər ordu həyatının mərdlik, mətinlik məktəbi olduğunu bildirirlər. Elsevər İbrahimov cəbhə bölgəsində xidmət edib. "Ordu həyatında Vətəni müdafiə etməyi, əsl vətəndaş olmağı öyrəndik. 2016-cı ilin aprel döyüşləri istənilən vaxt təkrarlana bilər. Silahdaşlarımla birgə torpaqlarımızın azadlığı uğrunda ordumuzun zəfər yürüşünə qoşulmağa həmişə hazıram".

Səhman Verdiyev də düşmənlə təmas xəttində xidmət edib. İşğalçıların təxribatlarına hər zaman layiqli cavab verdiklərini deyən Səhman bildirir ki, düşmən heç vaxt ordumuz qarşısında tab gətirə bilməz.

Fərid Əfəndiyev isə artilleriya qoşunlarında xidmətini başa vurub. Həmişə döyüş hazırlığında fərqləndiyini deyən gəncə görə, ordu rəhbərliyinin cəbhə bölgələrinə səfərləri, əsgər və zabitlərlə görüşləri yaddaşında daim xatırlanacaq.

"Qürur hissi keçirirəm ki, güclü, qüdrətli orduda xidmət etmişəm. Mən də silahdaşlarım kimi Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərə həmişə hazıram".

Hərbi xidmət müddətini başa vurmuş Amin Ağayev, Elvin İdrisov, Vüsal İbrahimov, Elsevər Aşırov, Elçin Nəcəfli və başqaları da daim Vətənin müdafiəsinə hazır olduqlarını qətiyyətlə söylədilər.

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 442
Nüsxə 4600